**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# ROBERTSON DEVİS VƏ MARQARET ETVUDUN YARADICILIĞINDA ÖZÜNÜDƏRK PROBLEMİ

İxtisas: 5718.01 – Dünya ədəbiyyatı (ingilisdilli ədəbiyyat)

Elm sahəsi: Filologiya

İddiaçı: **Türkan Nazim qızı Əliyeva**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

**Bakı – 2024**

Dissertasiya işi Bakı Mühəndislik Universitetinin İngilis dili kafedrasında yerinə yetirilmişdir.

| | |
|---|---|
| Elmi rəhbər: | filologiya elmləri doktoru, professor<br>**Aynur Zakir qızı Sabitova** |
| Rəsmi opponentlər: | filologiya elmləri doktoru, professor<br>**Nailə Məmmədhüseyn qızı Sadıqova** |
| | filologiya üzrə fəlsəfə doktoru<br>**Arif Alim oğlu Əsədov** |
| | filologiya üzrə fəlsəfə doktoru<br>**Mənsurə Tiflis qızı Ağayeva** |

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurası.

| | |
|---|---|
| Dissertasiya şurasının sədri:<br>________________ | filologiya elmləri doktoru, professor<br>**Azad Yəhya oğlu Məmmədov** |
| Dissertasiya şurasının elmi katibi:<br>________________ | filologiya üzrə fəlsəfə doktoru, dosent<br>**İradə Nadir qızı Sərdarova** |
| Elmi seminarın sədri:<br>________________ | filologiya elmləri doktoru, professor<br>**Şahin Həmid oğlu Xəlilli** |

# İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi**. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra dünyaya inteqrasiya kursunu hədəf almış, qloballaşan dünyanın prioritetlərini milli kimlik platformu, etnomental dəyərlər kompleksi ilə uyarlı biçimdə mənimsəmək və bu yöndə inkişaf etmək strategiyasını izləmək vəzifəsini qarşıya əsas məqsəd kimi qoymuşdur. Bütün sahələri əhatə edən bu əməkdaşlıq elm və təhsil sahəsində də dünya ədəbiyyatının tədqiq və təbliğinin daha yeni formada və geniş spektrli araşdırmalar zəminində aparılması zərurətini ortaya qoymuşdur. Dünyanın qabaqcıl mədəni ölkələrindən Kanada mədəniyyətinin və xüsusilə ədəbiyyatının tanınmış nümayəndələrindən Robertson Devis və Marqaret Etvudun "özünüdərk" istiqamətli əsərlərinin tədqiqi xüsusi aktuallıq kəsb edən bir problem kimi bu ehtiyacdan yaranmışdır. Kanada ədəbiyyatının keçdiyi tarixi inkişaf mərhələləri, xüsusilə "özünüdərk" mövzusunun başlıca tədqiqat obyekti olması səbəbləri, tədqiqata cəlb etdiyimiz hər iki kanadalı yazıçının mənsub olduqları xalqın "özünüdərk" prosesini düzgün bədii əksetdirməsi təqdim edilən dissertasiya işində qaldırılmış problemlərin, həmin problemlərin həlli istiqamətində izlənilən tarixin əlaqəli tədqiqinin aktuallığını şərtləndirir.

Müasir Kanada romanındakı forma və məzmun modifikasiyalarının böyük qisminin postmodern konsepsiyası çərçivəsində gerçəkləşdiyini nəzərə alsaq, Kanada cəmiyyətinin spesifik mentalitetinin müəyyənləşdirilməsində hər iki yazıçının yaradıcılığının mühüm rol oynadığının şahidi oluruq.

"Özünüdərk" mövzusunun çağdaş Kanada ədəbiyyatının başlıca mövzularından olması və Kanada ədəbiyyatının bütün dünyada tanınmasında müstəsna xidmətləri olan Robertson Devis və Marqaret Etvudun ədəbi irsi dünyanın bir sıra ölkələrində, o cümlədən Azərbaycanda yetərincə öyrənilməmişdir. Digər dünya ədəbiyyatları ilə müqayisədə gənc olmasına və yetərincə öyrənilməməsinə baxmayaraq Kanada ədəbiyyatı tarixinin öyrənilib araşdırılması kanadalı milli-mənəvi kimliyinin formalaşmasında ədəbi nümayəndələrinin müstəsna xidməti olduğunu söyləməyə əsas verir.

Müasir ədəbiyyatşünaslıq elmində ingilisdilli Kanada ədəbiyyatına və nümayəndələrinə maraq və bu istiqamətdə araşdırmaların sayı artmaqdadır. Robertson Devisin və Marqaret Etvudun yaradıcılıq dövründəki Kanada ədəbiyyatı özünün bir sıra kəskin ziddiyyətlərinə baxmayaraq XX əsr dünya ədəbiyyatında mühüm yer tutur. Kanada ədəbiyyatının hər iki nümayəndəsinin yaradıcılıq yolunu Kanada xalqının özünüdərk baxımından müasir Azərbaycan ədəbiyyatşünaslıq elminin tələbləri üzrə obyektiv tədqiq etmək qarşıda duran vacib vəzifələrdəndir və mövzunun aktuallığını ifadə edir. Mənəvi dərk vasitəsi kimi bədii ədəbiyyatın kanadalıların milli – etnik özünütəsdiqi prosesində mühüm rol oynaması və ədəbiyyatının tanınmış simalarının yaradıcılıqlarının xalqın milli və mənəvi özünüdərketməsi istiqamətində tədqiqi ciddi elmi əhəmiyyəti və aktuallığı ilə diqqəti cəlb edir.

İngilisdilli Kanada ədəbiyyatının tarixi – inkişaf yolunun izlənilməsi, xalqın milli mənəvi özünüdərketməsində ədəbiyyatın rolunun müəyyənləşdirilməsi, ayrı-ayrı şair və yazıçıların yaradıcılığının bu istiqamətdə öyrənilməsi son zamanlar dünya ədəbiyyatşünaslığının, o cümlədən ədəbi-tənqidi fikrin diqqət mərkəzindədir. Bu baxımdan Azərbaycan ədəbiyyatşünaslığında[1] filologiya üzrə fəlsəfə doktoru, dosent Nəsir Xankişiyevin Kanada ədəbiyyatına dair "İngilisdilli Kanada Ədəbiyyatı" adlı monoqrafiyası, Əsmər Əkpərovanın "Marqaret Etvud yaradıcılığında feminist ideyalar və antiutopiya" adlı filologiya üzrə fəlsəfə doktoru dissertasiyası önəmli addım sayıla bilər. Bu baxımdan həmçinin araşdırdığımız yazıçıların əsərləri barədə Avropa və Amerika ədəbiyyatşünaslığında Bləkbön S., Kəmpbel J., Natali Kuk, Davidson K., Fulford R., Qreys S., Qrant J., Bossier K., Hovel K., və digərləri tərəfindən maraqlı fikirlər səsləndirilmiş, əsərlər yazılmış, münasibət bildirilmişdir. Amerikalı tədqiqatçılardan Lalhriatriul A., Davidson A., Silvermən B., Robert P.K., Avropa ədəbiyyatşünaslığından Qeorqin O.S., Hovel K.A., Toye U. və rus tədqiqatçılarından Jarkova Y.P., Yeremenko K.S. və Noxrin İ.

[1] Xankişiyev, N. İngilisdilli Kanada Ədəbiyyatı. / N.Xankişiyev. – Bakı: Elm, – 2003. – 131s.; Əkpərova, Ə.C. Marqaret Etvud yaradıcılığında feminist ideyalar və antiutopiya: / filologiya üzrə fəlsəfə doktoru dis. avtoreferatı./ – Bakı, 2023. – 29 s.

Kanada ədəbiyyatı və yazıçılarının yaradıcılıqlarının müəyyən istiqamətlərinə dair elmi araşdırmalar aparmışlar[2]. Lakin Kanada ədəbiyyatında özünüdərk problemi və bu problemin Robertson Devis və Marqaret Etvud yaradıcılıqlarında təhlili məsələləri müstəqil tədqiqat obyektinə çevrilməmişdir. Yaradıcılıq maneraları təkcə mənsub olduqları Kanada xalqı üçün deyil, qlobal əhəmiyyət daşıyan Robertson Devis və Marqaret Etvudun bədii irsinin öyrənilməsi və Kanada xalqının özünüdərkində keçmiş olduğu təkamül yolunu geniş oxucu kütləsinə çatdırılması müasir ədəbiyyatşünaslığımızı ədəbi əlaqələr baxımdan zənginləşdirmək üçün önəmli addımdır.

**Tədqiqatın obyekti və predmeti.** XX əsr Kanada ədəbiyyatında "özünüdərk " prosesinin təhlili istiqamətində izlənilən tarixin əlaqəli tədqiqi və Müasir Kanada ədəbiyyatının tanınmış nümayəndələrindən Robertson Devis və Marqaret Etvudun çoxsahəli bədii ədəbi irsinin və onların yaradıcılığında tarixi və müasir gerçəkliyin bədii inikası olan özünüdərk probleminin öyrənilməsi tədqiqat işinin obyektini təşkil edir. Tədqiqatın predmetini isə hər iki

[2] Annabel Lalhriatruil. Negotiating Power: A Study of Selected Novels of Margaret Atwood: / Diss. Doctor of Philosophy in Philology. / – Toronto, 2021. – 184 p.; Davidson, A.E. The Art of Margaret Atwood: Essays in Criticism / A.E.Davidson, C.N.Davidson, – Toronto: House of Anansi Press, – 1980. – 304 p.; Bryan A. Silverman. Canadian Identity, Multiculturalism, and A Cosmopolitan Future: / Diss. Doctor of Philosophy in Philology. / – Kent, Ohio, 2014. – 172 p.; Cole, R.P. A reality running like a subterranean river under the surface: The Place of the Jungian Concept of Individuation in the non-Deptford Writings of Robertson Davies: / Diss. Doctor of Philosophy in Philology. / – University of Alberta, 1998. – 279 p.; Gheorghiu, O.C. Rewriting Politics, or the Emerging Fourth Wave of Feminism in Margaret Atwood's The Testaments / M.Praisler // English Language Overseas Perspectives and Enquiries, – Ljubljana: – 2020. Vol. 17, No. 1, – p.87-96; Howell, C.A. Atwood's Reinventions: So Many Atwoods // – Ljubljana: English Language Overseas Perspectives and Enquiries, – 2020. Vol.17, Issue 1, – p.15-28; Toye, W. The Concise Oxford Companion to Canadian Literature. / W.Toye. – Oxford: Oxford University Press, – 2012. – 694 p.; Жаркова, Е.П. Антиутопии М. Этвуд «Рассказ Служанки» и «Трилогия Безумного Аддама» в контексте традиции и новейших тенденций в развитии жанра: / дисс. канд. филологических наук. / – Воронежский государственный университет, 2017. – 164 с.; Еременко, К.С. Поиски национальной идентичности в общественном дискурсе Канады 1950-1960-х гг.: / дисс. канд. исторических наук. / – Дальневосточного Федерального университет, 2015. – 225 с.

yazıçının yaradıcılığının tədqiqi və təhlili istiqamətində istifadə olunmuş çoxsaylı mənbələrin sistemləşdirilməsidir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Dissertasiyanın yazılmasında əsas məqsəd dünyaşöhrətli Kanada yazıçıları olan Robertson Devis və Marqaret Etvudun yaradıcılığı əsasında Kanada ədəbiyyatında tarixi və müasir bədii özünüdərk probleminin özəlliklərini araşdırmaqdan ibarətdir. Bunun üçün dissertasiya işində aşağıdakı vəzifələrin yerinə yetirilməsinə xüsusi diqqət yetirilmişdir:

– Kanada xalqının milli-mənəvi kimlik uğrunda mübarizəsinin səbəblərinə aydınlıq gətirmək, Fransa, Böyük Britaniya və ABŞ kimi ölkələrin bu prosesə təsirini araşdırıb təhlil etmək;

– "Özünüdərk" mövzusunun Kanada ədəbiyyatının əsas mövzularından biri olmasının səbəbini araşdırmaq və Kanada ədəbiyyatının keçmiş olduğu yolu elmi-nəzəri cəhətdən təhlil etmək;

– Kanada ədəbiyyatının görkəmli nümayəndələrindən olan Robertson Devis və Marqaret Etvudun yaradıcılığını, ədəbi-bədii materialları əsasında ədəbiyyatda tarix və bədiilik, sənət və gerçəklik məsələlərini və özünüdərk problemlərini həmin bədii əsərlərə söykənməklə müasirlik kontekstində müəyyənləşdirmək;

– Hər iki yazıçının bədii irsinin mövzu, problematika və sənətkarlıq məsələlərini elmi-nəzəri təhlil süzgəcindən keçirib, milli və bəşəri, ədəbi-bədii və mədəni-mənəvi proseslərdə onların yerini və rolunu aşkarlamaq;

– Robertson Devis və Marqaret Etvudun bütün yaradıcılığını çevrələyən mənlik və özünüdərk probleminin ən mühüm cəhətlərini təqdim və təhlil etmək;

– Robertson Devis və Marqaret Etvudun təhlilə cəlb edilmiş əsərlərinə ədəbi tənqidin münasibətini qiymətləndirmək;

– Robertson Devis və Marqaret Etvudun əsərlərində fantastik janr elementlərini təhlil etmək, fövqəltəbii qüvvələr və arxetiplərin qəhrəmanların "özünüdərk" prosesinə olan təsirini müəyyənləşdirmək;

– Azərbaycan elmi camiəsini bu dahi yazıçıların həyat və yaradıcılığı ilə tanış etmək.

**Tədqiqatın metodları.** Tədqiqat işinin yazılmasında bədii əsərlərin öyrənmə metod və üsullarından, xüsusilə mədəni – tarixi,

bioqrafik, müqayisəli metodlarından istifadə edilmişdir. Tədqiqat ingilisdilli mənbələr zəminində aparılmışdır. Araşdırmanın əsas tədqiqat obyekti olan yazıçıların yaradıcılığı sistemli təhlil edilmiş və ümumiləşdirmələr aparılaraq elmi nəticələr əldə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.** Kanada ədəbiyyatında özünüdərk mövzusunu Robertson Devis və Marqaret Etvud yaradıcılığında tədqiq etmək və mövzunu tam şəkildə əhatə etmək üçün müdafiəyə çıxarılan əsas müddəalar aşağıdakılardır:

– Şərq fəlsəfəsində və digərlərində geniş müzakirə obyekti olan insanın özünüdərki, özünüdəyərləndirməsi və şəxsiyyət kimi formalaşması prosesinə cəmiyyətin əvəzolunmaz təsiri müəyyənləşdirilir;

– İstila altında olmuş bir çox ölkələr kimi Kanada ədəbiyyatının da başlıca mövzularından biri olan "özünüdərk" bu dövrdə ölkədə müxtəlif mədəniyyətlərin hökm sürməsi və insanların milli – mənəvi kimliyindən məhrum olması ilə əlaqələndirilir;

– Kanada ədəbiyyatında real kanadalı insanı, onların cəmiyyətini və həyat şəraitini əks etdirən orijinal əsər yazılmasını ləngidən əsas amilin ABŞ və Britaniya ədəbiyyatının Kanada ədəbiyyatına olan təkzibedilməz təsiri aşkar edilir;

– XX əsrdə yazmış olduğu trilogiyalar ("Salterton", "Deptford", "Korniş" və "Toronto") vasitəsilə Kanada ədəbiyyatının özünəməxsus milli-mənəvi kimliyinin tanınmasına nail olmuş Robertson Devisin dünya ədəbiyyatında yeri müəyyənləşdirilir;

– XX əsrdə geniş yayılmış Karl Yunqun analitik nəzəriyyəsi – individuallaşma, sinxronlaşma, "mən, kölgə, persona, anima və animus" kimi arxetiplər əsasında Robertson Devisin əsərlərinin qəhrəmanların daxili həqiqi kimliyi uğrunda mübarizəsinin təhlili və ümumiləşdirmələri aparılır;

– Robertson Devisin əsərlərinin qəhrəmanlarının mənəvi inkişafının dialektik qarşıdurma üzərində qurulmasının və xarakterlərin ictimaiyyətin onların müdrikləşməsi və inkişafına aparan mühakimələrinə hər zaman açıq olmasının mühüm rolu və əhəmiyyəti təyin edilir;

– XX əsr Kanada ədəbiyyatının nümayəndələri Robertson Devis və Marqaret Etvud yaradıcılığı əsasında fantastik janr

elementlərinin səciyyəvi xüsusiyyətləri araşdırılır;

– Cəmiyyətdə cinslərarası bərabərhüquqluluğun carçısı olan Marqaret Etvudun əsərləri şəxsi həyatında qarşılaşmış olduğu qadınlara qarşı haqsızlıqları və onların öz kimlikləri uğrunda mübarizəsini özündə ehtiva edir;

– Marqaret Etvudun öz əsərlərində təbiəti kanadalı mənlik şüurunun formalaşmasının əsas tərkib hissəsi kimi göstərməsi və qəhrəmanların sağ qalmasında təbiətin əvəzolunmaz rolu xüsusi maraq doğurur;

– Marqaret Etvudun distopik hesab olunan “Damazlıq qızın hekayəti” və “Vəsiyyətnamə” əsərləri əsasında bəşəriyyəti narahat edən, qlobal problemə çevrilən gender məsələsi hər zaman aktuallığı və zaman və məkandan asılı olmayaraq kişilərin dominant olduğu cəmiyyətdə hüquqsuzluqdan əziyyət çəkən və kimlik uğrunda mübarizə aparan qadının yeri müəyyənləşdirilir.

**Tədqiqatın elmi yeniliyi**. Multikultural dövlət hesab edilən Kanadada “özünüdərk” mövzusunun Robertson Devis və Marqaret Etvudun əsərləri əsasında təhlili və bu mövzunun geniş yayılmasının səbəblərinin müəyyənləşdirilməsi tədqiqat işinin elmi yeniliyini təsbit edən əsas amillərdəndir. Bu baxımdan təqdim olunan dissertasiya işi XX əsr Kanada ədəbiyyatında “özünüdərk” və “kimlik” anlayışlarının öyrənilməsində yenilik aktı hesab edilə bilər. Dünya ədəbi fikrində özünəməxsus yerləri olan və daim bədii tənqidin diqqət mərkəzində olan Robertson Devis və Marqaret Etvudun əsərlərinin təhlili Azərbaycan elmi, ədəbi-bədii fikri üçün vacib hesab olunan özünüdərk mövzusunun geniş şəkildə araşdırılması və Kanada ədəbiyyatının fərqli spektrlərdən öyrənilməsi üçün əsas ola bilər. Robertson Devisin və Marqaret Etvudun əsərlərinin ənənəvi yanaşma üsulları ilə deyil, müasir, sərbəst tədqiqat imkanından çıxış edərək təhlil edilməsi də yenilik kimi təqdim oluna bilər. Tədqiqatda Roberston Devisin və Marqaret Etvudun əsərlərinin külliyyat halında araşdırılması gələcəkdə bu yazıçıların əsərlərindən seçmə yolu ilə kitab çap etdirilməsində baza rolunu oynaya bilər.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Müasir ədəbiyyatşünaslıqda kanadalı kimliyinin dünyada tanınmasında rolu olan

yazıçıların əsərlərinin öyrənilməsi xüsusi əhəmiyyət daşıyır. Tədqiqatın nəticələrindən dünya ədəbiyyatı tarixinin ən yeni dövrünün yazılmasında, dünya ədəbiyyatına dair ali məktəb dərsliklərinin, tədris proqramlarının, metodik vəsaitlərin hazırlanmasında istifadə oluna bilər. Eyni zamanda, gələcəkdə Kanada ədəbiyyatının öyrənilməsi ilə bağlı aparılacaq araşdırılmalarda, müxtəlif tipli tədqiqat işlərində təqdim olunan dissertasiyanın müddəalarından faydalanmaq olar. Dissertasiyada qaldırılmış bir sıra məsələlər ədəbi-tənqidi fikir tariximizin müəyyən mərhələsinin bu və ya digər dərəcədə səciyyələrini ehtiva etdiyi üçün bu istiqamətdə aparılan tədqiqat işlərində istifadə oluna bilər.

Dünyada yaxşı tanınan Kanada ədibləri Robertson Devis və Marqaret Etvud haqqında verilmiş məlumatlar Azərbaycanda Kanada ədəbiyyatı barədə biliklərin daha da zənginləşməsinə xidmət edə bilər. Tədqiqatımızın nəticələrindən praktiki olaraq doktorant və dissertantlar, ölkəmizin ədəbiyyat müəllimləri faydalana bilərlər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya mövzusu Azərbaycan Respublikası Elmi Tədqiqatların Əlaqələndirilməsi Şurasının 28 aprel 2016-cı il 3 saylı iclasında qeydiyyatdan keçmişdir.

Tədqiqatın elmi yenilikləri və əsas nəzəri müddəaları beynəlxalq və regional elmi konfranslarda məruzələrdə əksini tapmış, xarici ölkələrdə və Azərbaycan Respublikasında elmi jurnal və məcmuələrində və konfrans materiallarında çap olunmuşdur.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Bakı Mühəndislik Universitetinin İngilis dili kafedrasında yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi qeyd olunmaqla dissertasiyanın işarə ilə ümumi həcmi**. Dissertasiya işi giriş, üç fəsil, nəticə və istifadə edilmiş ədəbiyyat siyahısından ibarətdir Dissertasiyanın Giriş hissəsi 8 səhifə, 15432 işarə, I fəsil 18 səhifə, 35394 işarə, II fəsil 40 səhifə, 78779 işarə, III fəsil 49 səhifə, 97913 işarə və nəticə 3 səhifə, 5194 işarədən ibarətdir. Dissertasiya işinin ümumi həcmi istifadə edilmiş ədəbiyyat siyahısı istisna olmaqla 232112 işarədir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin "Giriş" hissəsində mövzunun aktuallığı və işlənmə dərəcəsi, tədqiqatın obyekt və predmeti, elmi yeniliyi, məqsəd və vəzifələri göstərilir, müdafiəyə çıxarılan müddəalar müəyyənləşdirilir, dissertasiyanın nəzəri və praktik əhəmiyyəti, tədqiqat metodları, aprobasiyası və quruluşu haqqında məlumat verilir.

**"Kanada ədəbiyyatında özünüdərk problemi"** adlı I fəslin "***Özünüdərk və kimlik anlayışının elmi ədəbiyyatda təhlili***" adlı birinci paraqrafında "kimlik" anlayışına aydınlıq gətirilərək müəyyənləşdirilmişdir ki, "kimlik" anlayışı hər bir şəxsə, yaxud xüsusi bir sosial qrupun nümayəndələrinə məxsus səciyyəvi xüsusiyyətdir. Bu paraqrafda elmi fikirdə "kimlik" və "özünüdərk" anlayışı müxtəlif yönlərdən mənalandırılmış və bu anlayışı dərk etmək üçün müxtəlif tədqiqatçılardan sitatlar gətirilmiş və "özünüdərk"in bədii təsvir vasitəsi olan ədəbiyyatda əksi təhlil edilmişdir.

"Kimlik" və "mənlik" anlayışı fərdi müəyyən bir cəmiyyətin üzvü kimi xarakterizə edir və onu insani və mənəvi xüsusiyyətlərin birləşməsi kimi təyin edir. İrqinə, etnik mənsubiyyətinə, dininə, dilinə və mədəniyyətinə əsaslanaraq insanlar özlərini digər qruplardan ayırır və kim olduqları haqda fikir formalaşdırırlar. Kim olduğunu anlamaq üçün ilk növbədə insan özünü dərk etməlidir – özünün özü ilə və dünya ilə əlaqələrini araşdırmalıdır. Bunun nəticəsində insan özünün kim olduğunu, yaxud daha önəmlisi kim olmaq istədiyini anlayır. İnsanın kimliyini və özünü dəyərləndirməsini – şəxsi xüsusiyyətlərini, bilik və bacarıqlarını, həyatda rolunu və fiziki xüsusiyyətlərini dəyərləndirməsi müəyyən edir. Tədqiqatçı Uilyam Penuel "özünüdərk" məfhumunu təhlil edərək yazmışdı: "*Kimlik*" *və* "*Özünəməxsusluq*" *fərdin bilik, bacarıq, inam və tarixinin birləşməsinin uyğun təcəssümüdür. Bu sərbəst olaraq insanlar, fikirlər, dəyərlər və ideologiyalar haqqında seçim və qərar vermək deməkdir*"[3]. Məşhur amerikalı tədqiqatçılar Rozenberq

---

[3] Penuel, W.R., Wertsch, J.V. Dynamics of Negation in the Identity Politics of Cultural Other and Cultural Self // – California: Sage Journals, – 1995. Vol. 2, Issue 2, – p.343-344

və Kaplana görə, bir insanın "mənliy"i və "özünüdərketməsi" onun bir obyekt kimi özü haqqında olan fikirlərindən ibarətdir və insanın öz şəxsi xüsusiyyətlərinin fərqində olması, özünü dəyərləndirməsi "özünüdərketmə" prosesinə təsir edən amillərdəndir [4].

"Özünüdərk" mövzusu müəyyən dövrlərdə bir çox ölkələrin, xüsusilə istila altında olan ölkələrin ədəbiyyatının da başlıca mövzularından biri olub. Ədəbi-bədii fikrin rolu hər bir xalqın milli inkişafında, özünü dərk etməsində danılmazdır. Böyük fəlsəfi fikir məktəbləri olan bir çox xalqların milli-etnik özünüdərki və özünütəsdiqi daha çox dərəcədə bədii ədəbiyyatda öz əksini tapmışdır. Bədii əsərlərdə insan amili və onun milli və mənəvi özünüdərk etməsi ən uyğun şəkildə ifadə edilir. Tarixi, mədəni və ideoloji şərait insanların öz ölkələrində yad və tənha hiss etmələrinə səbəb olur ki, daxillərində olan ziddiyyət onlara öz həqiqi kimliklərini axtarmağa vadar edir. Özünüdərk və xarakterlərin öz həqiqi kimlikləri uğrunda mübarizəsi demək olar ki, bütün ədəbiyyat nümunələrində öz əksini tapıb. Bu mövzu oxuculara insanların kim olduqları və nə etmək istədikləri barədə ziddiyyətli fikirlərlə dolu düşüncə tərzini başa düşməyə kömək edir. Kanada yazıçılarının yazdığı əsərlərin əsas ümumiləşdirici cəhəti baş qəhrəmanların özünüdərketməsi uğrunda apardıqları mübarizə idi. Kanada bədii ədəbiyyatında da hansı janrda yazılmasından asılı olmayaraq yazıçılar öz əsərləri vasitəsilə hər bir kanadalının "kimlik" axtarışında olduğunu, özünəməxsus "mən" formalaşdırmaq istədiyini nümayiş etdirirlər. Kanadalı yazıçı Robertson Devis Kanada ədəbiyyatı haqqında maraqlı fikir səsləndirmişdi: "*Kanada böyük tarixi keçmişi olan, Avropa xalqının ruhunda olan ədəbiyyatı təlqin etməyəcək. Biz – bu günün insanları XIX əsrin xüsusiyyətlərini daşıyırıq və Kanadanın özünəməxsus milli ədəbiyyatı var. Yazıçılarımız isə adi bir milləti deyil, beynəlxalq birliyi olan multikultural bir milləti təmsil edir*"[5].

---

[4] Rosenberg, M. Social psychology of the self-concept / M.Rosenberg, H.B.Caplan. – Arlington Heights: Harlan Davidson, Inc, – 1982. – 184 p.

[5] Голюнова, Т.Н. Мультикультурализм и Канадская литература // Вестник Санкт-Петербургского университета. Язык и литература, – 2008. Вып.2. Ч.II. – с.16

Kanadada regional və milli kimliklər daima dəyişildiyindən milli mənlik şüurunun formalaşması uzun sürən bir prosesdir. Kanada əhalisinin multikultural olması və dəyişkən təbiəti yaşından və hansı ölkədən olmasından asılı olmayaraq bütün kanadalıların paylaşa biləcəyi ümumi milli mənlik şüurunun formalaşmasını çətinləşdirir. Bugünkü yazıçıların əksəriyyəti kanadalı kimliyinin bütün dünyada tanınması üçün həqiqi Kanada incəsənəti və ədəbiyyatının yaranmasının vacibliyini başa düşür və dünya ədəbiyyatında qəbul edilə biləcək kanadalı kimliyini əks etdirən ədəbiyyat nümunələri yazmağa çalışırlar.

I fəslin "***Kanada ədəbiyyatının təkamülündə "özünüdərk" probleminin rolu***" adlı ikinci paraqrafında Kanada milli-mənəvi kimliyi kanadalıları dünyadakı başqa mədəniyyətlərdən və xalqlardan fərqləndirən, onu xarakterizə edən xüsusiyyətlər kimi təhlil edilir. Bu paraqrafda əsrlərlə İngiltərə, Fransa kimi ölkələrin istilası altında olan və Amerika kimi güclü istismarçı qonşusu olan Kanadada yalnız insanların deyil, həm də şair və yazıçıların da kanadalı vətəndaşına məxsus, onu dünyanın digər millətlərindən fərqləndirəcək özünəməxsus milli-mənəvi kimlik formalaşdırmaq uğrunda mübarizəsi təsvir olunub.

XVIII – XIX əsrlərdə Kanadada yazılan əsərlər ingilis ədəbiyyatındakı tendensiyanı təqlid edirdi. Bu dövrdə ingilis əsilli kanadalı yazıçı dramaturq Fransis Brukun yazdığı "Emili Montaquenin tarixi" ("The History of Emily Montague") Kanadanın birinci əsəri, eyni zamanda Amerika ədəbiyyatının nümunəsi hesab olunurdu. Əsər XVIII əsr Kanadasını əks etdirir. Bu dövr, həmçinin ingilisdilli Kanada ədəbiyyatında qadın yazarların artması ilə də səciyyələnirdi. Britaniya mədəniyyətinin artıq bütün dünyada təsiredici və əsaslı ənənələri olan bir ədəbi axını olduğundan ingilis ədəbi cərəyanlarını təlqin etməsindən məmnun olmasına baxmayaraq kanadalı yazıçılar Kanadaya məxsus müstəqil, özünəməxsus milli – mənəvi kimliyi formalaşdırmaq üçün digər dövlətlərin təsirini sərhədləməli və özünəməxsus ədəbi cərəyan yaratmalı olduqlarını anlayırdılar. Ona görə də kanadalı yazıçılar Britaniyanın ədəbi janr, model və formalarını, əsərləri real kanadalı insanını, onların cəmiyyətini və insanların həyat şəraitini əks etdirməsi üçün öz

cəmiyyətlərinə uyğunlaşdırırdılar. İkinci dünya müharibəsindən sonra, Kanada ədəbiyyatının dünya ədəbiyyatında yeri və vəziyyəti əsaslı şəkildə dəyişikliyə uğradı. Professor Florian Koulmas yazmışdır: *"Əvvəllər heç bir zaman kanadalılar son onilliklərdə olduğu kimi yerli ədəbi hərəkatı formalaşdırmağa hazır olmamışdılar və bu hərəkat baş verdiyi dövr ərzində ədəbiyyatın keyfiyyəti və kəmiyyətinin hiss olunacaq dərəcədə artmasına səbəb olur*"[6]. XX əsrdə Marqaret Etvud, Elis Manro, Maykl Ondaaji, Robertson Devis və Norsrop Fray kimi yazıçılar bu dövrü yalnız milli özünüdərk üçün deyil, həmçinin bütün dünyada kanadalı kimliyini tanıtmaq üçün yeni mövzuların araşdırılması və yazılması üçün ən uyğun zaman kimi dəyərləndirirdilər. Kanadalı professor və ədəbi tənqidçi Eduard Braun "Kanada ədəbiyyatının problemləri" ("The Problem of Canadian Literature") məqaləsində Kanada ədəbiyyatının ölkədən kənarda heç bir təsirinin olmamasından yazırdı[7]. İkinci Dünya müharibəsindən sonra, Kanada ədəbiyyatının dünya ədəbiyyatında yeri və vəziyyəti əsaslı şəkildə dəyişikliyə uğradı. Artıq XIX əsrin son onilliklərində "İttifaq dövrü" adlanan dövrdə milli-mənəvi şüur formalaşır və yeni forma və məzmunda əsərlər yazılırdı. Əvvəllər yazıçılar tədqiqat, məskunlaşma və həyatda sağ qalma kimi mövzularda yazmağa üstünlük verirdilərsə, əsrin sonlarında qadın hüquqları və müstəqillik siyasəti, fövqəltəbii təbiətin təsviri daxil olan sosial mövzuları əhatə edən janrlarda yazmaq geniş yayılmışdı. Kanada ədəbiyyatı tədqiqatçılarından İvan Noxrin məqalələrinin birində ədəbiyyatın şəxsiyyətin mənlik şüurunun formalaşması prosesindəki rolunu xüsusilə qeyd edir: "*Əgər tarixşünaslıq bu prosesdə Kanada xalqının keçmişdəki kökü funksiyasını yerinə yetirirsə, ədəbiyyat və incəsənət bu günün ruhu rolunu oynayır*"[8].

Bu dövrdə yazılmış əsərlərə Kanada nəsrinə uyğun ədəbi formanın – zaman, məkan və xarakterlər cəhətdən bir-biri ilə əlaqəli

---

[6] Coulmas, F. Sociolinguistics: The Study of Speakers' Choices. / F.Coulmas. – Cambridge University Press, – 2013. – p.178

[7] Brown, E.K. On Canadian Poetry. / E.K.Brown. – Toronto: The Ryerson Press, – 1943. – 154 p.

[8] Нохрин, И. Общественно-политическая мысль Канады и становление национального самосознания. / И.Нохрин. – Канада: Алтасфера, – 2012. – с.232

hekayələr – çərçivə hekayələr (story cycle) toplusunun yaranmasına nail olmuş Tomas Şandle Haliburtonun "Nova Skotiya xatirələri" ("The Recollection of Nova Scotia"), "Saatsaz" ("Clockmaker") və Kəmpbel Skotun "Vigar kəndində və digər hekayələr ("In the Village of Viger and Other Stories"), Marqaret Lorensin Manaşaka trilogiyasına daxil olan əsərləri nümunə göstərmək olar. Marqaret Laurens 1977-ci ildə öz yaradıcılıq təcrübəsindən irəli gələrək əminliklə Kanada milli-mənəvi şüurunu əks etdirən Kanada ədəbiyyatı haqqında yazır: "*İndiki dövrdə bizim ədəbiyyatın oxunması və öyrədilməsi asandır, çünki o maraqlıdır və oxumağa, öyrətməyə dəyər. Lakin bizim üçün onun başqa xüsusiyyəti də var. O bizim özümüzündür, o bizimlə qəlblərimizə yaxın olan, çoxlu və müxtəlif yollarla danışır; o bizi əcdadlarımıza bağlayır...bizi öz torpaqlarımıza sahib çıxmağa, öz soy-kökümüzü tanımağa və özümüzü dəyərləndirməyə səsləyir*"[9].

Ədəbiyyat nümunələrinin təhlili bir daha onu söyləməyə əsas verir ki, kanadalı kimliyi haqqında yazan ədəbiyyatçıların işıqlandırmalı olduqları əsas məsələ ərazinin və irsin kanadalı kimliyinin formalaşmasına etdiyi birbaşa təsir idi. Zamanla Kanada yazıçıları buna nail olur, öz xalqının mənəvi xüsusiyyətlərini əks etdirən əsərlər yazır və Kanadanı bütün dünyada tanıda bilirdilər.

Dissertasiyanın **"Robertson Devisin trilogiyasında özünüdərkin spesifikası və obrazlarının mənlik uğrunda mübarizəsinin təsviri"** adlı II fəslinin ***"Robertson Devisin bədii dünyası: ədəbi tənqidin münasibəti"*** adlı birinci paraqrafında yazıçının maraqlı ömür yolu, bədii əsərlərinin üslubi xüsusiyyətləri və tənqidçilər və ədəbiyyatşünasların onun əsərlərinə müxtəlif yönlərdən münasibətləri təhlil olunur. Dünya ədəbiyyatında özünəməxsus yeri olan Robertson Devis (Robertson Davies; 28 August 1913 – 2 December 1995) XX əsr Kanada ədəbiyyatının görkəmli nümayəndələrindəndir. Bədii düşüncənin zirvəsində dayanan yazıçı yaradıcılıq manerasının genişliyinə və əsərlərinin bədii təsir gücünə görə çoxsaylı mükafatlara layiq görülmüşdür. O, ədəbi aləmdə nəinki istedadlı qələmə malik yazıçı, teatrşünas,

---

[9] Verduyn, Ch. Margaret Laurence: An Appreciation. / Ch.Verduyn. – Ontario: Broadview Press, – 1988. – p.141

həmçinin ədəbi tənqidçi kimi də tanınmışdır. Onun bədii və elmi publisistik irsinə 11 roman, çoxlu sayda novellalar, hekayələr və məqalələr daxildir. Onun 1951-1958-ci illərdə yazdığı "Salterton" trilogiyası ("Qəfil qasırğa" ("Tempest Tost"), "Nifrətin mayası" ("Leaven of Malice"), "İncəliklərin qarışığı" ("A Mixture of Frailties")), bizim tədqiqata cəlb etdiyimiz 1970-1975-ci illərdə yazılmış Deptford trilogiyası ( "Beşinci personaj" ("Fifth Business"), "Mantikor" ("The Manticore") və "Möcüzələr dünyası" ("World of Wonders")), 1980-1988-ci illərdə yazılmış Korniş trilogiyası ("Üsyankar mələklər"("The Rebel Angels"), "Sümüklərdə nə var" ("What's Bred in the Bone"), "Orfeyin lirası" ("The Lyre of Orpheus")) və tamamlanmamış Toronto trilogiyası Kanada ədəbiyyatının dünya ədəbiyyatında mövqeyini və ədəbi tənqidin münasibətini dəyişir.

XX əsr Avropa ədəbi tənqidi Robertson Devisin əsərlərinə rəğbətlə yanaşmış, onun bir neçə kitabı jurnalist Ceyms Medison Devis tərəfindən nəşr olunmuş və bir sıra əsərləri isə kanadalı yazıçı və redaktor Cudis Skelton Qrant, teatr rejissoru Tayron Qusri, jurnalist Cenifer Suric, həyat yoldaşı Brenda Devis tərəfindən redaktə olunmuşdur. Kanada ədəbi tənqidi onun əsərlərində obrazları yaratmaq və hadisələri nəql etmək bacarığına heyranlıqdan yazır, yazıçının müdrikliyindən, yumor hissindən və inandırıcı üslubundan [10] həzz aldığını ifadə edirdi. Devis əsərlərinin ədəbi tənqid tərəfindən rəğbətlə qarşılanması onu nəinki Kanada yazıçılarının ön sıralarına çıxarmış, dünya şöhrətini artıraraq romanlarının bir çox dünya dillərinə tərcümə olunmasına səbəb olmuşdur. Tənqidçi yazar Nikolas Maes Devis haqqında yazmış olduğu əsəri "Robertson Devis: Sözün sehri"ndə ("Robertson Davies:Magician of Words") Devisin yaradıcılığının bir çox aspektlərinə aydınlıq gətirmişdir[11]. Kitabın sonunda müəllif "Robertson Devisin xronologiyası"nı ("The Chronology of Robertson Davies") vermiş və onun haqqında yazılmış bir çox əsərləri qeyd etmişdir. Bura "Robertson Devis:

---

[10] Grant, J.S. Robertson Davies: Man of the Myth. / J.S.Grant.– Vikings Book, – 1994. – 787 p.

[11] Maes, N. Robertson Davies: Magician of Words. / N.Maes. – Sydney: Read How You Want. – 2017. – 268 p.

Mifik insan" ("Robertson Davies: A Man of Myth") [Grant, Judith Skelton, 1994], "Ziddiyyətlərin qarışığı" ("Robertson Davies: A Mingling of Contrarieties") [Camille La Bossiere, 2001] "Robertson Devis və onun əsərləri" ("Robertson Davies and His Works") [John Mills, 1984], "Robertson Devis:Mozaik üzərində portreti" ("Robertson Davies: A Portrait in Mosaic") [Val.Ross, 2008] və bu kimi digər əsərlər daxildir.

Bədii əsərin yazılması prosesinə böyük məsuliyyət hissi ilə yanaşan Robertson Devis bu barədə fikirlərini jurnalist Elizabet Siftonla müsahibəsi zamanı dilə gətirərək demişdir: "*Yeni əsər yazmağa başlamaq çətin bir işdir. Hər bir yeni əsərimi yaradarkən mən özümü hər an dalğaların zərbəsi ilə bata biləcək bir üzgüçü kimi hiss edirəm*"[12]. Devisin əsərlərinin məzmunu birbaşa yazıçı uydurmaları olmayıb Kanada cəmiyyətinin gerçəkliklərini özündə əks etdirir. Yazıçı bütün yaradıcılığı boyu həyat həqiqətlərini bədii həqiqətlər fonunda verməyə çalışmışdır. Onun əsərləri insanın yaşam psixologiyasını əks etdirən, oxucunu düşündürən dərin mənalı fikirlərlə yanaşı, gülməli və əyləncəli xarakterlərlə doludur. Devis romanlarında fərdilik, mif, kollektivlik, qeyri-şüurluluq kimi fundamental mövzulardan istifadə etmiş olsa da, hər bir əsərində bu mövzulara müxtəlif aspektdən yanaşaraq münasibət bildirmişdir

Dissertasiyanın II fəslinin ***"Karl Yunqun Robertson Devisin obrazlarının "özünüdərk" və "daxili mən" prosesinə təsiri"*** adlı ikinci paraqrafında Karl Yunqun Robertson Devisin yaradıcılığına təsiri təhlil edilmiş və onun analitik psixoloji nəzəriyyəsi əsasında obrazların necə özünüdərk edərək müdrikləşməsi araşdırılmışdır.

Robertson Devis əsərlərinin səciyyəvi xüsusiyyətlərindən biri qəhrəmanların həqiqi kimlikləri uğrunda apardıqları mübarizə nəticəsində psixoloji vəziyyətlərinin dəyişməsidir. Devisin xarakterlərinə bu cür yanaşması onun yaradıcılığına Yunqun analitik psixoloji nəzəriyyəsinin təsiri hesab oluna bilər. Robertson Devisin əsərlərinin təhlili göstərir ki, Yunqun insan şüuruna arxetiplərin təsir

---

[12] Sifton, E. Robertson Davies, The Art of Fiction: [Electronic resource] / The Paris Review, issue 110. – spring, 1989. https://www.theparisreview.org/interviews/2441/the-art-of-fiction-no-107-robertson-davies

etməsi inancına oxşar olaraq Devisin də ədəbi qəhrəmanları öz həyatlarının mənasını, daxili mənlərini, köhnə quruluşa əsaslanan insanların həyatlarını araşdırmaqla tapırdılar. Yazıçı Parisia Monkun "Kiçik sonsuzluq: Robertson Devis əsərlərində Yunq kimliyi" əsərində iddia edilir: "*onun "Yunq yaradıcılığına dərin və uzunmüddətli marağı var...və nəhayət, Devis bu marağı dünyanı dərketmənin bir üsulu, yolu kimi qiymətləndirir*"[13]. Devisin yaradıcılığını simvolizə edən əsas dörd trilogiyasından (Salterton, Deptford, Korniş və yarımçıq qalmış Toronto) Deptford trilogiyasının Yunq analitik nəzəriyyəsinin təsiri ilə yazıldığı iddia edilir. Yazıçı Suzan Stoun Bləkburna görə Devisin sonrakı əsərlərində bir fərdin öz həqiqi kimliyini dərk etməsində Yunqun nəzəriyyəsinin təsiri hiss olunurdu [14].

Bu paraqrafda Yunqun analitik nəzəriyyəsinin təsiri altında yazılmış "Beşinci personaj" əsərini təhlil etməklə Devisin qəhrəmanlarının özünüdərk uğrunda apardıqları mübarizəsi təsvir edilib. Robertson Devisin Deptford trilogiyasına daxil olan əsərlərinin baş qəhrəmanları Dunstan Ramzey ("Beşinci personaj"), David Staunton ("Mantikor") və Pol Dempster ("Möcüzələr dünyası") məharətlə Yunqun şüurun üç əsas fərqli modelini – şüurluluq, şəxsi şüursuzluq və kollektiv şüursuzluq konsepsiyalarını birləşdirir. Devis insan ruhunun dünya üzərində dominantlığı inancına əsaslanaraq romanındakı baş qəhrəmanları Yunqun mən, anima/animus, persona və kölgə arxetiplərinə uyğun olaraq təsvir edir. "Book review"a əsaslanaraq qeyd etməliyik ki, "Beşinci personaj" romanı iki səviyyədə oxuna bilər. Tədqiqatçıların fikrincə, "*ilk baxışdan əsər ətrafında olan güclü xarakterli insanlara hər zaman dəstək olan sadə bir insanın həyatı haqqında hekayədir, lakin dərindən araşdırıldıqda əsər Yunq arxetiplərinin, sinxronlaşmanın, güc, sevgi, seksuallıq və inam suallarının kompleks araşdırılması-*

[13] Monk, P. The Smaller Infinity: The Jungian Self in the Novels of Robertson Davies. – University of Toronto Press, – 1982. – p. 183

[14] Blackburn, S.S. Robertson Davies: Playwright: A Search for the Self on the Canadian Stage. – Vancouver: University of British Columbia Press, – 1985. – 249 p.

*dır"*[15]. Kanada və Şimali Amerikanın nüfuzlu qəzetlərində heyrətamiz əsər adlandırılan "Beşinci personaj" əsərinin əsas üç qəhrəmanı Dunstan Ramzey, Boy Staunton və Pol Dempsterin həqiqi kimliyini tapmaq uğrunda mif və sehr dolu hadisələrlə zəngin səyahəti, qarşılaşdığı müxtəlif insanlarla müqəddəs insanlar haqqında söhbətləri təsvir olunub. Başlanğıc nöqtəsi – içərisinə daş qoyulmuş qar topunun atılması - hər üç qəhrəmanın taleyini fərqli istiqamətlərə yönləndirir[16]. Yunqun şəxsi şüursuzluq səviyyəsi ilə uyğunlaşdırılan Dunstanın bir "presbitariyan" uşağı kimi ömür boyu daşıdığı günah hissi onu daxili kimliyindən uzaqlaşdırır, lakin qarşılaşdığı obrazları Yunqun arxetipləri ilə təhlili nəticəsində özünü dərk edir. Beləliklə, əsərin təhlili baş qəhrəmanın özünüdərk prosesinin düz xətt – obrazla ətraf aləm arasındakı dialoq şəklində aparıldığını sübut edir. Əsərindəki personajları və Karl Yunqun fikirlərini birləşdirərək Devis Kanada ədəbiyyatının ən yaxşı sayıla biləcək əsərini yaza bilmişdir.

II fəslin sonuncu – ***"Robertson Devisin qəhrəmanlarının "daxili mən"inin dialektikası***" adlı paraqrafında Roberson Devisin qəhrəmanlarının dialektika vasitəsilə öz daxili həqiqi mənlərini necə dərk etdikləri "Mantikor" və "Möcüzələr dünyası" romanları əsasında təhlil edilmişdir.

Robertson Devis "insan öz hərəkətlərinin nəticəsinə görə nə dərəcədə məsuliyyət daşıyır və insanın məsuliyyət hissi nə zaman başlayır?" kimi sualların "Deptford" trilogiyasının yazmağının əsas səbəbi olduğunu qeyd edir. Onun fikrincə, fiziki aləmdə yaşayan hər bir fərd mütəmadi olaraq ətraf aləmlə münasibətdə olur və bu şəxs və material dünya arasında olan dialektik proses nəticəsində insan özünü, öz kimliyini dərk edir. Yazıçı "Deptford" trilogiyasını mənəvi əsər kimi dialektika üzərində yazmağa çalışmışdır. Təhlil prosesində qeyd edilir ki, "Deptford" trilogiyasına daxil olan hər üç əsərdə tarixi faktlar arasındakı əlaqə, bu faktların qəhrəmanlar tərəfindən şəxsi təhlili və bu təhlilə ictimaiyyətin reaksiyası öz əksini tapır.

---

[15] Phronk. Book Review: Fifth Business, by Robertson Davies: [Electronic resource] / phronk.com. – June 01, 2009. URL: http://www.phronk.com/2009/06/book-review-fifth-business-by_robertson.html

[16] Əliyeva, T.N. Robertson Devisin "Beşinci personaj" əsərində özünüdərk mövzusu // Gənc Tədqiqatçıların I Beynəlxalq Elmi Konfransı, – Bakı: BMU, – 05-06 May, – 2017, – s.847-849

“Deptford” trilogiyasına daxil olan ikinci əsər “Mantikor” və üçüncü əsər “Möcüzələr dünyası”da insanın özünü dərk etməsinə dialektika vasitəsilə necə nail olduğu daha incəliklə təsvir edilib. “Mantikor” əsərinin baş qəhrəmanı – atası Boy Stauntonun müəmmalı ölümü ilə sarsılmış – David Staunton psixoloq doktor Von Hallerlə və dostları – Ramzey, Eyzenqrim və Liessla söhbəti nəticəsində daxili təlatümünə son qoyulur. Beləliklə, o, həyatda mövcudluğunun mahiyyətini dərk edir. Dialektika nəticəsində o, eqosentrik baxışın məhdudluğuna inanır və özünə, dünyaya qarşı daha yetkin düşüncələr formalaşdırır. Liesl Davidə “*müasir qəhrəman öz daxili mübarizəsinə qalib gələn adamdır*”[17] deyir və onu “öz hekayəsinin qəhrəmanı” ("*be the hero of your own epic*") olmağa səsləyir və Davidə öz daxili “mən”ini dərk etməsində cəsarət verir. Dissertasiyanın bu paraqrafında “Möcüzələr dünyası” əsərinin baş qəhrəmanı Maqnus Eyzenqrimin özünüdərk uğrunda çıxdığı yolda qarşılaşdığı insanlar, onlarla dioloqu və bu insanların Maqnusun həyatına təsiri nəticəsində güvənsiz biri kimi başladığı yolu özgüvənli, kim olduğunu dərk etmiş biri kimi bitirməsi incəliklə təsvir edilmişdir. Devis “Deptford” trilogiyasını yazdığı zaman qarşısına qoyduğu – mənəvi məsuliyyət – sualına hər üç əsər boyu cavab tapmağa çalışır. Trilogiyaya daxil olan əsərlərin ana xəttini ümumbəşəri dəyərlər, məntiqi nəticələr və faktlar təhlil edilərək baş qəhrəmanların münasibətlərinin yoxlanıldığı mürəkkəb dialektik quruluş təşkil edir ki, belə bir quruluşda əsərlər yazması Robertson Devisin mənəvi dünyasının zənginliyini və onun yaradıcılığının uğurunu sübut edir.

Kanada milli-mənəvi özünüdərki ilə yanaşı, bir qadının cəmiyyətdəki rolunu, hüquqlarını, mənini müəyyənləşdirməyə çalışan Kanada ədəbiyyatının qüdrətli ədəbi simalarından Marqaret Etvud və yaradıcılığı dissertasiyanın **“Marqaret Etvud yaradıcılığında milli-mənəvi özünüdərk probleminin qoyuluşu və həlli”** adlı III fəslinin ***“Marqaret Etvud yaradıcılığının Kanada ədəbiyyatında rolu”*** paraqrafında təsvir edilmişdir. İlk paraqrafda yazıçının həyat yolunun ən maraqlı anları təhlil süzgəcindən keçirilmişdir. Təhlil prosesində qeyd olunmuşdur ki, Marqaret Etvud – Kanada ədəbiyyatında çox

[17] Davies, R. The Manticore. / R.Davies. – Penguin Classics, – 2006. – p.269

qüdrətli ədəbi sima kimi son zamanların ən çox oxunan və haqqında yazılan yazıçılarındandır. O, dünya səviyyəsində tanınmış yazıçı, şair və tənqidçidir. Kanada ədəbiyyatının məşhur tədqiqatçısı Lorin York onun haqqında yazmış olduğu kitabında qeyd edir: "*Etvudun yaradıcılığı hər bir janra aid əsərlərdən – romanlar, şeirlər, qısa hekayələr toplusu, tənqidi əsərlər, uşaq əsərləri və son dövrlərdə isə yarı pişik, yarı insan və yarı quş "Angel Catbird" adlanan super qəhrəmanı haqqında komik hekayədən ibarətdir"*[18].

Onun əsərləri dünyanın 22-dən çox dilinə tərcümə olunaraq nəşr olunmuşdur. Marqaret Etvud həssas müşahidəçilik qabiliyyətinə malik olan bir yazıçı kimi Kanada cəmiyyətində, ətraf aləmdə baş verən hadisələrə biganə qala bilmir və yazdığı əsərlərinin də əsas mövzusunu yaşadığı və şahidi olduğu hadisələr təşkil edirdi. Etvudun kəskin müşahidəçilik qabiliyyətini qeyd edən Rebeka Mid Marqaret Etvudu "Antiutopiyanın Kraliçası" adlandırır və əsərləri vasitəsilə qadınlara qarşı nifrət dolu, zülmün və nizamsızlığın hökm sürdüyü bir cəmiyyəti təsvir etdiyini iddia edirdi [19].

Bununla yanaşı, Marqaret Etvud öz yazıları vasitəsi ilə oxucularına güclü feminist mövzuları çatdırmağa çalışırdı. Onun əksər əsərlərindəki qadın qəhrəmanlar gender bərabərsizliyi ilə alçalmış, hüquqları tapdalanmış qadınlar idi. Qadın hüquqsuzluğu Etvudu daha çox narahat edirdi. Psixoloq Barbara Riqney yazır: "*Etvudun qəhrəmanları daim öz kimliklərini sübut etmək üçün yeni "mən", dil, səs axtarışındadırlar. Onun əsərləri bərabərsizliyə qarşı mübarizə aparan qadın təbiətinin güclü cəhətlərini əks etdirir*" [20]. Etvudun ədəbi fəaliyyətinə ilk əsəri olan "Yeməli qadın"la ("The Edible Woman") (1969) başlamış,"Xanım Orakl" ("Lady Oracle") (1976), "Adəmdən öncəki həyat" ("Life Before Man") (1979), "Fiziki zədəli" ("Bodily Harm") (1981), "Damazlıq qızın hekayəti" ("Handmaid's Tale") (1985), "Pişik gözü" ("Cat's Eye") , "Ləqəbi Qreys"("Alias

---

[18] York, L. Margaret Atwood and Labour of Literary Celebrity. / L.York. – University of Toronto Press, – 2013. – p.132

[19] Mead, R. Margaret Atwood, the Prophet of Dystopia: [Electronic resourse] / The New Yorker, – April 17, – 2017. URL: https://www.newyorker.com/ magazine/2017/04/17/margaret atwood-the-prophet-of-dystopia

[20] Rigney, B.H. Margaret Atwood (Twayne's World Authors Series). / B.H.Rigney. – Boston: Twayne Publishers, – 1984. – p. 21

Grace") (1996), "Kor süi-qəsdçi" ("Blind Assassin") (2010), "Oriks və Kreyk" ("Oryx and Crake") (2003), "Daşqın ili" ("The Year of the Flood") (2009), "Maddadam" ("Maddadam") (2013) və son əsəri olan "Vəsiyyətnamə" ("The Testaments") (2019) ilə öz yerini dünyada istedadlı qələmə malik olan yazar kimi möhkəmləndirmişdir. Bir qadın kimi Etvud həmişə kişilər tərəfindən idarə olunan, əsasən patriarxal bir cəmiyyətdə qadının öz mənliyini, şəxsiyyətini dərk etməsi üçün deyil, eyni zamanda bir milli varlıq tərənnümçüsü kimi Kanada kimliyinin dünyada tanınması üçün çalışmışdır.

III fəslin ***"Marqaret Etvudun yaradıcılığında Kanada cəmiyyətində milli mənlik şüurunun formalaşması məsələləri"*** adlı paraqrafında kanadalıların kimlik şüurunun formalaşmasına təsir edən amillər təhlil edilir. Tədqiqatın nəticəsində qeyd edilir ki, Marqaret Etvud insanın formalaşmasında təbiətin rolu və təsirini mühüm saymış, təbiətə həm kənar təhlükəli qüvvə, həm də insanın subyektivliyinin birləşdirici hissəsi kimi baxmışdır. Etvud sübut etməyə çalışmışdır ki, təbiət xilasolmanın bir vasitəsidir, təbiətin təsiri altında insan öz xarakteri ilə daxili mübarizə aparaaraq təbiətə uyğun yolla xarici cavablar verməlidir. Etvud yazır: "*Təbiət nəhəngdir, əgər insan onu qəbul edib onunla harmoniyada yaşamaq əvəzinə ona qarşı çıxsa onu qəzəbləndirər*"[21].

Etvuda görə də insanın təbiət ilə qarşılaşması yalnız xarici qüvvələrlə deyil, həmçinin insanın öz təbiəti və "mən"i ilə qarşılaşmasıdır˙ Əsərdə ABŞ-ın müstəmləkəçilik məqsədləri də müəllif qələmində tənqid edilmişdir. Yazıçı iddia edir ki, kanadalılar hər zaman ABŞ-ın hər addımını izləyib tərifədiyi halda, əksər amerikalılar kanadalıların nə etdikləri barədə maraqlanmır və narahat olmurlar[22]. Etvudun uzun illər istila nəticəsində milli-mənəvi dəyərlərini itirmiş bir ölkənin yeganə çıxış yolunun özünü əsarətdən azad etmək, özünü dərk etmək və mənlik şüurunu formalaşdırmaq haqqında fikirləri dissertasiyanın bu paraqrafında geniş təhlil olunmuşdur.

---

[21] Atwood, M. Survival: A Thematic Guide to Canadian Literature. / M.Atwood. – Sydney: ReadHowYouWant, – 2013. – p.66

[22] Aliyeva, T.N. The Analysis of Characters' Struggle to Survive in Margaret Atwood's Works // – Norwegian Journal of development of the International Science, – 2023. Issue 115, – p. 27-30

Təbiətlə harmoniyada yaşamağın insanın mənəvi özünüdərk prosesində rolu Marqaret Etvudun "Anlama" əsəri əsasında araşdırılmışdır. Marqaret Etvudun əsərlərində insanın "mən"i çox mürəkkəb şəkildə qurulur və öz daxilində iki və daha çox varlığı birləşdirir. İnsan "mən"ində olan ziddiyyətləri Erik Daffron araşdırmış və "ziddiyyətli mən" adlandırmışdır. "Ziddiyyətli mən" Etvudun bir çox əsərlərinin, o cümlədən "Anlama" əsərinin baş qəhrəmanının əsas xüsusiyyətidir. Ədəbi tənqidçi Barbara Hill Riqney yazır: "*əgər biri Etvudun baş qəhrəmanı kimi ünsiyyət saxlaya bilmirsə, hiss etmirsə, adı yoxdursa və tamamilə parçalanmışsa, o, psixoloji cəhətdən ölüdür*"[23]. "Anlama" əsərində Etvud qadın yaradıcılığının məhdudlaşdırılmasını və məcburi abortun qadın psixikasına neqativ təsirlərini və kişilərin dominant olduğu cəmiyyətdə qadının intellektual, emosional və mənəvi cəhətdən necə istismar olunduğunu istedadlı yazıçı qələmi ilə diqqətə çatdırıb. "Anlama" əsərinin adsız qəhrəmanı müxtəlif mərhələlərdən keçərək nəhayət təbiətlə birləşdikdən sonra, öz əcdadlarına qayıtdıqdan sonra özünü dərk edir, kimliyini – mənliyini tapır. O, öz daxili "mən"ini aşkara çıxarmaqla mənən və ruhən rahatlıq tapır və özünü dərk etmiş qəhrəman daha mübariz şəkildə cəmiyyətə qayıdıb yoluna davam edir.

Etvudun yaradıcılığının tədqiqi sübut edir ki, ziddiyyətli kimlik anlayışını təkcə onun bədii əsərlərində deyil, poeziyasında və digər əsərlərində də müşahidə etmək olar. Bu xüsusən illərlə öz kimliyindən məhrum edilmiş, başqa xalqların təzyiqi altında yaşayan, kim olduğunu dərk edə bilməyən xalqlar, xüsusilə kanadalılar üçün səciyyəvidir. Marqaret Etvudun qəhrəmanlarının timsalında hər bir kanadalının daxilən bölünmüş kimlikləri olmasına baxmayaraq müxtəlif yollarla öz daxili bütövlüyünə nail olduğu sübut edilir.

Marqaret Etvudu dünya ədəbiyyatında oxuculara sevdirərək şöhrətini artıran onun cəmiyyətin yaradıcısı olan qadın azadlığına münasibəti, qadın istismarına qarşı duran etirazlarıdır. Dissertasiyanın III fəslinin ***"Marqaret Etvudun əsərlərində qadın "özünüdərk"inin və istismarının təsviri"*** adlı paraqrafında yazıçının

---

[23] Rigney, B.H. Margaret Atwood (Twayne's World Authors Series). / B.H.Ridney. – Boston: Twayne Publishers, – 1984. – p.11

bu bəşəri problemə münasibəti açıqlanır. Dünya ədəbiyyatında qadın emansipasiyası məsələsi insan konsepsiyası çərçivəsində tədqiq edilərək mühüm sosial problem qismində çözülmüşdü. Qadın azadlığı məsələsi əsrlər boyu tərəqqipərvər bəşəriyyəti düşündürən ən çətin həlli olan ən mühüm problemlərdən biri kimi bütün dövrlərin ictimai-siyasi fikir tarixində diqqət mərkəzində durmuşdur. Feminist yazıçı kimi Marqaret Etvudun məqsədi qadının daxili psixikasını, onların konfliktini, özünüdərkini, milli mənlik axtarışını, konkret bir millətin, dinin, mədəniyyətin nümayəndəsi kimi özünüdərkini araşdırmaqdır. Onun yaradıcılığında cəmiyyətdəki problemlər öz əksini qadın obrazlarının ziddiyyətləri, xarakterlərinin mürəkkəbliyi və həmçinin psixologiyalarının paradoksal təzahürləri fonunda təcəssüm olunmuşdu. Etvud öz əsərlərində təkcə Kanada qadınının deyil, həmçinin həmin dövrdə Kanadaya aid problemləri əks etdirməyə çalışmışdı. İnsanların xoşbəxtliyini özünün amalı hesab edən Etvud yaratdığı əsərlərdə həmin dövrün ictimai-siyasi, sosial problemlərinə, cinslərarası münasibətlərə, çoxluğun qəddarlığına, insani dəyərlər və hüquqlar kimi mövzulara toxunmuşdu. Qadın azadlığı və istismarı problemi Marqaret Etvudun XX əsrin 60-70-ci illərində yazmış olduğu “Qarşıdurma” və “Xanım Orakl” da aydın şəkildə görünür.

Yazıçının distopik əsərləri olan “Damazlıq qızın hekayəti” və “Vəsiyyətnamə”də distopik gələcək cəmiyyəti təsvir edilir. İddia edilir ki, Etvudun əsərlərini oxumaqla oxucu qadınların təzyiq altında saxlanıldığı patriarxal cəmiyyətdə mövcud olan qeyri – bərabər gender quruluşu ilə qarşılaşır. Bu əsərlər həmçinin qadınlara mübarizə aparmaları və öz həqiqi kimliklərini tapmaları üçün yol göstərir. Kristina Qomez yazır: *“Damazlıq qızın hekayəti” əsərindəki hadisələr gələcəkdə və bir zamanlar ABŞ-ın olmuş ərazidə cərəyan edir. Bu mövcud patriarxal cəmiyyəti və hər yolla alçaldılan qadınları təsvir edən distopik əsərdir. Etvuda görə, kitabdakı hər şey həqiqətdir və bəzi cəmiyyətlərdə gerçəkləşib*”[24]. Bütün hüquqlarından məhrum edilmiş qadınlar patriarxal Gilead cəmiyyətində müxtəlif kateqoriyalara bölünür

---

[24] Gomez, C.From Being an Unaware Victim to Becoming a Creative Non-Victim: A Study of Two Novels of Margaret Atwood, in Perspectives on Canadian Fiction. – 1994. – p.85

və bəzilərinə isə komandirlər üçün dünyaya uşaq gətirmək öhdəliyi verilmişdir. J.Bruks Bouson yazırdı: "*Cəmiyyət arasında sərt iyerarxik təbəqələşmə yaratması ilə yanaşı, Gilead Respublikası məqsədli şəkildə qadınların şəxsi kimliklərini məhv etməyə çalışır və falosentrik iqtisadiyyatın əvəzoluna bilən bir əşyasına çevirirdi*"[25]. "Damazlıq qızın hekayəti" əsərinin baş qəhrəmanı Offredin xilas olması uğrunda mübarizəsi dissertasiyanın bu paraqrafında geniş təsvir olunur. Təhsil, iş, mülkiyyət, dəbdəbəli geyimlərdən məhrum edilmiş qadınlar kimliklərindən tamamilə məhv edilmək üçün hətta adlarından məhrum edilmişdilər və bu cəmiyyətdə din qadınların istismar olunmasının arxasında duran əsas vasitə idi. Offred cəmiyyətin onun üzərində olan məhvedici təsirini anlayır və yeni kimlik qazanmaq uğrunda mübarizəyə başlayır. O, yazıçı kimi yeni kimlik qazanır və öz həyatını, yaşadıqlarını kitab şəklində nəşr etdirir.

Əsərin davamı sayılan "Vəsiyyətnamə" romanında Donald Trampın dövründə qadın hüquqlarının Etvudun Gilead cəmiyyətini yenidən təsvirinə necə təsir etdiyi araşdırılmış və cəmiyyətin təsviri rahibə Lidiya, Aqnes və Nikolanın dilindən üç fərqli baxış bucağından təqdim edilmişdir. Əsər obrazların parçalanmış mənliklərində, duyğularında, başqalarına inamsızlıqda və sevgi qabiliyyətinin azalmasında müşahidə edildiyi kimi, travmanın insan şəxsiyyətinin formalaşmasına etdiyi təsirləri araşdırmaqda xüsusilə təsirlidir. Əsərlərin geniş təhlili təsdiq edir ki, Marqaret Etvudun spekulyativ fantastika əsərləri hesab olunan "Damazlıq qızın hekayəti" və "Vəsiyyətnamə" 1980-ci illərdə ABŞ-ın müxtəlif sosial, siyasi və dini cərəyanlarının satirik mənzərəsini təqdim edir. Etvud bu əsəri vasitəsilə, illər boyu digər ölkələri zəbt edən zalım, totalitar və dini dövlətlərin – "bizim ölkəmizdə olması mümkün deyil" deyənlərə cavab verməyə və o, belə bir dövlətin mövcudluğunun nəticələrini göstərməyə çalışmışdır.

"Robertson Devis və Marqaret Etvudun yaradıcılığında özünüdərk problemi" adlı dissertasiya işinin **"Nəticə"** hissəsində tədqiqat boyu aparılan araşdırmalardan əldə olunan elmi-nəzəri qənaətlər aşağıdakı qaydada ümumiləşdirilmişdir:

---

[25] Bouson, J. Brooks. Critical Insights: The Handmaid's Tale. – Salem Press, – 2009. – p.137

– Fərdi aid olduğu cəmiyyətin üzvü kimi müəyyən edən "mənlik" və "kimlik" anlayışları irqindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq onun həmin cəmiyyətdəki rolunu müəyyənləşdirir. Özünü dərk etmiş insan başqalarından fərqlənəcək xüsusiyyətlərə yiyələnməklə həyatda özünəməxsus mövqe prinsiplərinə də nail olur. Dissertasiyada ayrı-ayrı tədqiqatçıların və ədəbi tənqidçilərin elmi konsepsiyalarından çıxış edərək, insanın özünüdərk prosesində qazanılmış prinsiplər barədə fikirlərimiz irəli sürülmüş iddialarda təsdiqlənmişdir;

– Bədii əsərlərdə insan amili, onun milli və mənəvi özünüdərk prosesi ən uyğun şəkildə ifadə edilir. Əsrlərlə Fransa, İngiltərə kimi istilaçı dövlətlərin, istismarçı Amerikanın təsiri altında mövcudluğuna davam edən kanadalının milli-mənəvi kimliyinin formalaşması böyük maneələrlə üz-üzə qalmışdır. Bu səbəbdən, ölkənin sənət adamlarının öz vətəndaşına xas olan, onu dünyanın digər millətlərindən fərqləndirəcək milli-mənəvi kimlik formalaşdırmaq uğrunda mübarizəsi təkzibedilməzdir;

– Kanada milli ədəbiyyatının real imkanları və ehtiyacları ilə həmahəng olan "çərçivə hekayələr" (story cycle) janrı, məhz özünüdərk və identiklik axtarışı ideallarının təcəssümünə novator münasibət sərgiləyir, şamil edilə biləcək müəyyən milli-mənəvi dəyərləri reallıqla əlaqəli təsvir etməyə çalışır. Bu da öz növbəsində Kanada ədəbiyyatının gələcək inkişafı kontekstində dirçəliş kimi qiymətləndirilə bilər. Əsrin sonlarına yaxın Kanada ədəbiyyatında müstəqil dövlətçilik, insan hüquqları, gender bərabərsizliyi kimi ictimai-siyasi, sosial xarakterli mövzuların, "fövqəl təbiət" hadisələri ilə zəngin təsvirlərin geniş yer aldığı bədii nümunələrin çoxluğu, bu ədəbiyyatda janr kriteriyalarının inkişafına yol açaraq fərqli ədəbi mühitin formalaşmasına gətirib çıxartdı;

– Orijinal deyim tərzi, obrazlılıq, surətlərin əlaqələndirilməsi məsələsi Robertson Devisin əsərlərinin süjet xəttində özünəməxsus modelin yaranmasına xidmət edir. Robertson Devisin trilogiyaları vasitəsiylə Kanada cəmiyyətinin gerçəkliklərini bədii həqiqətlər fonunda verməyə çalışması, əsərlərində xeyir və şər, tarixi və mənəvi kimlik, reallıq və illuziya, sənət və mistika kimi mövzuların, konfliktlərin işıqlandırılmasını önə çıxarır;

– Robertson Devisin sehrli realizm metodu ilə qələmə aldığı “Beşinci personaj” adlı əsərində sehr və möcüzə ruhu hopdurulmuş idealların, obrazların daxili aləmləri ictimai ideyaların insan psixologiyasına təsiri nəticəsində formalaşması kimi əks olunmuşdur. Karl Yunqun analitik-psixoloji nəzəriyyəsinin təsiri ilə yazıldığı iddia edilən romanda baş qəhrəman Danstan Ramzeyin özünüdərk prosesində qarşılaşdığı obrazların Yunqun arxetipləri ilə müqayisəsi və təhlili aydın görünür. İnsanın həqiqi kimliyini anlaması və özünü dərk etməsi üçün günahkar mövqeyindən və cəmiyyətin buxovlarından azad olmasının vacibliyi fikri əsərin emfatik gücünü artırır;

– Deptford trilogiyasına daxil olan “Mantikor” və “Möcüzələr dünyası” qəhrəmanlarının daxili ziddiyyətli kimliklərindən xilas olmaq üçün doğma vətənlərini tərk etməsi, qarşılaşdığı insanlarla milli şüurdan yönlənərək ünsiyyətqurma vərdişlərinin formalaşması və keçmişin indiki – həqiqi kimliklərində qoyduğu silinməz izlərin təhlili onu deməyə əsas verir ki, qəhrəmanların özünüdərketməsi tarixi faktlar arasındakı əlaqələrin təhlili və hadisələrə ictimaiyyətin reaksiyası əsasında öz düzgün qiymətini tapır. Adekvat bədii vasitələrlə təcəssüm edilmiş dialektika obrazların özünüdərk prosesində mühüm amil kimi də dəyərləndirilir;

– Müasir dövrün qlobal problemlərini əks etdirən və qadın hüquqlarının carçısı kimi dünya ədəbiyyatında özünəməxsus yeri olan Marqaret Etvudun baş qəhrəmanların daxili aləmlərinin açılması və əsərlərinin əsas süjet xəttində milli-mənlik şüurunun formalaşması, “kanadalı olmaq” ideyasının ön sıralarda durması, milli özünüifadə kodlarından biri kimi dəyərləndirilərək, problemin dövlət və millət kontekstində öyrənilməsini zərurətə çevirir;

– Müəllifin “Anlama” və “Xilasolma: Kanada ədəbiyyatının tematik bələdçisi” əsərlərinin geniş təhlili onu söyləməyə əsas verir ki, Marqaret Etvud təbiəti xilasolmanın bir vasitəsi, həm kənar təhlükəli qüvvə, həm də insanın subyektivliyinin birləşdirici hissəsi kimi dəyərləndirir;

– Marqaret Etvud “Anlama” əsərinin adsız qəhrəmanı vasitəsi ilə Amerikanın mədəni təsirləri altında əzilən Kanada cəmiyyətində “ziddiyyətli kimlik”, “patriarxal cəmiyyətin qurbanı”, “qeyri-

müəyyənlik", "xilasolma" və "kollektiv və şəxsi travmanın insan şüuruna təsiri" haqqında fikirlərini dilə gətirir və özünüdərk prosesində fövqəltəbii insan səviyyəsinə yüksəlmənin labüdlüyünü yeganə çıxış yolu kimi təqdim edir;

– Marqaret Etvud distopik cəmiyyətin əks olunduğu "Damazlıq qızın hekayəti" və "Vəsiyyətnamə" əsərlərində qadınların təzyiq altında saxlanıldığı patriarxal cəmiyyətlərin alternativ reallığını yaratmağa müvəffəq olmuşdur. Müəllif, mövcud olan qeyri-bərabər gender bərabərsizliyinin hökm sürdüyü gerçəkliklərin fövqündə dayanan "daha böyük gerçəklik var" prinsipinə real bədii məkan açır;

– Kanada ədəbiyyatında "özünüdərk" mövzusunun Robertson Devis və Marqaret Etvud yaradıcılığı əsasında tədqiqi göstərir ki, ölkənin keçmiş olduğu tarix, onun vətəndaşlarının daxili kimliklərində ziddiyyətlərin yaranmasına səbəb olmuşdur. Baş qəhrəmanların milli kimliklərini dərketmələri yolunda apardıqları mübarizəni, ümumilikdə obrazların fərdi keyfiyyətlərini, mənəvi-əxlaqi dünyalarının zənginliklərini daha təbii və canlı şəkildə təsvirində, sənətkarların əsas prinsiplərindən biri ümumbəşəri problemlərin konkret surətlərin timsalında təcəssümünə nail olmaq, cəmiyyətin sosial problemlərinin obyektiv mənzərəsini yaratmaq ideyası durur.

***Dissertasiyanın əsas məzmunu və elmi müddəaları müəllifin aşağıdakı məqalə və tezislərində əksini tapmışdır:***

1. Əliyeva, T.N. Marqaret Etvudun yaradıcılığında qadın konsepsiyası // – Bakı: Filologiya məsələləri, – 2017. № 12, – s.388-397;
2. Əliyeva, T.N. Marqaret Etvudun "Surfacing" əsərində qadın əsarətinin və özünüdərk uğrunda mübarizəsinin təsviri // – Bakı: Journal of Baku Engineering University, – 2017. Vol.1, № 1, – s.152-159;
3. Əliyeva, T.N. Robertson Devisin "Beşinci personaj" əsərində özünüdərk mövzusu // Gənc Tədqiqatçıların I Beynəlxalq Elmi Konfransı, – Bakı: BMU, – 05-06 May, – 2017, – s.847-849;

4. Əliyeva, T.N. Kanada ədəbiyyatında özünüdərk mövzusuna ümumi baxış // – Bakı: ADU, Elmi Xəbərlər, – 2018. № 3-4, – s.116-120;
5. Əliyeva, T.N. Marqaret Etvud yaradıcılığına olan təsirlərin analizi // Gənc Tədqiqatçıların II Beynəlxalq Elmi Konfransı, – Bakı: BMU, – 27-28 Aprel, – 2018, – s.1321-1323;
6. Əliyeva, T.N. Marqaret Etvudun "Damazlıq qızın hekayəti" əsərində qadın istismarının təsviri // – Bakı: ADU, Dil və Ədəbiyyat, – 2019. IX cild, № 1, – s. 137-143;
7. Əliyeva, T.N. Kanada ədəbiyyatında milli – mənlik şüurunun formalaşmasında hekayə janrının rolu // Gənc Tədqiqatçıların III Beynəlxalq Elmi Konfransı, – Bakı: BMU, – 29-30 Aprel, – 2019, – s.1295-1298;
8. Əliyeva, T.N. Robertson Devisin "Mantikor" əsərində qəhrəmanın daxili "mən"inin kəşfi // Humanitar və İctimai Elmlərin Əsasları mövzusunda I Respublika Elmi Konfransı, – Bakı: Elmi iş, – 2020, – s.89-91;
9. Aliyeva, T.N. Robertson Davies' Fifth Business as a Pattern of Canadian Myth // II International Ankara Conference of Scientific Research, – Ankara, – March 6-8, – 2020, – p.124-130;
10. Aliyeva, T.N. The Analysis of Mythic Elements Used in Fifth Business by Robertson Davies // – EuroAsia Journal of Social Sciences and Humanities, – 2020. Vol. 7, Issue 3, – p.56-63;
11. Əliyeva, T.N. Robertson Devisin Deptford trilogiyası qəhrəmanlarının şəxsiyyətinin formalaşmasında dialektikanın rolu // Sumqayıt: Sumqayıt Dövlət Universiteti, Elmi Xəbərlər, – 2021. Cild 17, № 2, – s.43-47;
12. Aliyeva, T.N. The Description of Victimhood and Survival in Margaret Atwood's Works // International Conference on Literature, Education Social Science and Cultural Issues, – Vancouver, – August 9-10, – 2023, – p.38;
13. Aliyeva, T.N. The Analysis of Characters' Struggle to Survive in Margaret Atwood's Works // – Norwegian Journal of development of the International Science, – 2023. Issue 115, – p. 27-30.

Dissertasiyanın müdafiəsi 27 fevral 2024-cü il tarixində saat $10^{00}$ Azərbaycan Dillər Universiteti nəzdində fəaliyyət göstərən ED 2.12 Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1014, Bakı şəhəri, Rəşid Behbudov küçəsi, 134.

Dissertasiya ilə Azərbaycan Dillər Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Dillər Universitetinin rəsmi internet saytında yerləşdirilmişdir.

Avtoreferat 23 yanvar 2024-cü il tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 23.01.2024

Kağızın formatı: 60x84 1/16

Həcm: 43798 işarə

Tiraj: 100